**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№**028-348

**Bakı şəhəri** "22" aprel **2024-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu quş xəstəliyindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2023-2024-cü illər üzrə rəsmi məlumatlarına əsasən, Çexiya Respublikasının Cənubi Çexiya (Jihocesky) və Orta Çexiya (Středočeský) diyarlarında, Amerika Birləşmiş Ştatlarının (ABŞ) isə Arkanzas (Arkansas), Ohayo (Ohio), Viskonsin (Wisconsin), Kolorado (Colorado), İndiana (Indiana) və Nebraska (Nebraska) ştatlarında qeydə alınmış yüksək patogen quş qripi (YPQQ) xəstəliyi aradan qaldırılıb.

Belə ki, qeyd olunan ölkələrin həmin inzibati ərazi vahidlərində aradan qaldırılmış YPQQ xəstəliyinə görə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəlikdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adıçəkilən ölkələrin sadalanan inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatı və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, YPQQ xəstəliyinin baş verməsinə görə sözügedən ölkələrin qeyd olunan inzibati ərazi vahidlərinə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1.** 2022-ci il 13 dekabr tarixli 072/247 nömrəli qərarla Çexiya Respublikasının Cənubi Çexiya diyarına tətbiq edilmiş məhdudiyyət;

**1.2.** 2022-ci il 21 dekabr tarixli 073/248 nömrəli qərarla Çexiya Respublikasının Orta Çexiya diyarına tətbiq edilmiş məhdudiyyət;

**1.3.** 2023-cü il 13 noyabr tarixli 052/303 nömrəli qərarla ABŞ-ın Arkanzas ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.4.** 2023-cü il 5 dekabr tarixli 061/312 nömrəli qərarla ABŞ-ın Ohayo və Viskonsin ştatlarına tətbiq edilmiş məhdudiyyət;

**1.5.** 2023-cü il 13 dekabr tarixli 064/315 nömrəli qərarla ABŞ-ın Kolorado ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.6.** 2024-cü il 6 fevral tarixli 012/332 nömrəli qərarla ABŞ-ın İndiana ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.7.** 2024-cü il 16 fevral tarixli 014/334 nömrəli qərarla ABŞ-ın Nebraska ştatına tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi • Food Safety Agency of the Republic of Azerbaijan
Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer